# “Həqiqətən din asandır. Kim dini çətinləşdirərsə, din ona üstün gələr. Düzgünlüyə riayət edin, (bacarmasanız çalışın ona) yaxınlaşın

Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: “Həqiqətən din asandır. Kim dini çətinləşdirərsə, din ona üstün gələr. Düzgünlüyə riayət edin, (bacarmasanız çalışın ona) yaxınlaşın və sevinin. Səhər tezdən, günorta vaxtı və gecənin bir hissəsindən istifadə edin”.

[Səhih] [Əl-Buxari rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) açıq şəkildə bildirmişdir ki, İslam dini bütün işlərində asanlıq və rahatlıq üzərində bina edilimiş və acizlik və ehtiyac üçün bir səbəb olduqda isə asanlıq daha da artırılmışdır. Çünki, dini işlərdə dərinliyə getmək və yumşaqlığı tərk etməyin aqibəti acizlik və əməllərin hamısının və ya bir hissəsinin tərk edilməsi ilə nəticələnir. Sonra o (Allahın salavatı və salamı onun üzərinə olsun) həddi aşmadan orta yol tutmağa çağırmışdır. Qul, ona əmr olunan əməldə səhlənkar davranmasın, gücü çatmayacağını isə özünə yük etməsin. Əməli kamil şəkildə etməkdən aciz qalarsa, kamilliyə yaxınlaşmağa çalışsın. O (Allahın salavatı və salamı onun üzərinə olsun) əməli kamil şəkildə yerinə yetirməyə qadir olmayanları, az da olsa daimi əmələ görə böyük mükafatın olması ilə müjdələmişdir. Çünki acizlik onun öz tərəfindən (öz səhlənkarlığından) deyilsə, bu, onun əcrinin azalmasını gərəkdirmir. Bu dünya, əslində səfər yeri və axirətə keçid yeri olduğundan, o (Allahın salavatı və salamı onun üzərinə olsun) ibadətdə davamlı olmağa yardım etmək üçün onları üç stimullaşdırıcı vaxtlara həyata keçirtməyi əmr etmişdir: Birincisi: səhər: günün əvvəli; sübh namazı ilə günəşin doğması arasında. İkincisi: rovhə: günorta günəşin zeniti keçməsindən sonra. Üçüncüsü: gecə: bütün gecə və ya onun bir hissəsi. Gecənin işi gündüzün işindən daha çətin olduğu üçün "və gecədən bir hissə" deyərək onun bir hissəsini əmr etmişdir.